UOT-811.512.162
Səhifə: 42-45
https://doi.org/10.59849/2663-8967.2026.2.42

Gülşən Axundova
AMEA Nəsimi adına Dilçilik İnstitutu,
filologiya üzrə fəlsəfə doktoru, dosent

AZƏRBAYCAN DİLİNDƏ ALINMA COĞRAFİ ADLARIN TRANSLİTERASİYASININ BƏZİ XÜSUSİYYƏTLƏRİ

XÜLASƏ

Məqalə Azərbaycan dilində alınma coğrafi adların transliterasiyasının linqvistik təhlilinə həsr olunmuşdur. Azərbaycan dilində alınma coğrafi adların verilməsi qloballaşma və elmi-tərəqqi dövründə böyük əhəmiyyətə malikdir. Beynəlxalq iqtisadi və siyasi əlaqələr transliterasiyanın aktuallığını şərtləndirir. Məqalədə Azərbaycan dilində Avropa dillərindən alınma coğrafi adlarda işlənən spesifik hərf və hərfbirləşmələri təsnif olunur və onların Azərbaycan dilində verilməsinə aid praktik tövsiyələr verilir.

Açar sözlər: *transliterasiya, fonetik fond, zərurət, orfoqrafik, toponim, şərq dilləri, Hind-Avropa dilləri, normalaşdırma.*

Giriş: Məlumdur ki, Azərbaycan dilinin onomastikasında alınma coğrafi adların xüsusi əhəmiyyəti vardır. Eyni zamanda, hər bir dildə, o cümlədən Azərbaycan dilində alınma coğrafi adlar müəyyən mənada "varvarizm", yəni yad dil xüsusiyyəti daşıyan vahidlər kimi çıxış edirlər. Lakin buna baxmayaraq alınma coğrafi adların yazılışında Azərbaycan dilinin daxili potensialından düzgün və səmərəli istifadə etməli, dilimizin orfoqrafik prinsiplərinə riayət etməliyik. Bununla bərabər qeyd etmək laxımdır ki, coğrafi adların normalaşdırılması və standartlaşdırılması beynəlxalq əhəmiyyətli işdir. Coğrafi adların standartlaşdırılması problemləri həm milli, həm də beynəlxalq elmi hökumətlərarası təşkilatların maraq dairəsini təşkil edir. Bunlara misal olaraq aşağıdakı beynəlxalq təşkilatların adlarını çəkmək lazımdır:

ICOS – International Commitee of Onomastic Sciences – Onomastik Elmlər üzrə Beynəlxalq Komitə;

ISO – International Standartization Organization – Beynəlxalq Standartlaşma Təşkilatı;

IPA – International Phonetic Association – Beynəlxalq Fonetik Assosiasiya və s. [1, s.7-8].

Məlumdur ki, Birləşmiş Millətlər Təşkilatı nəzdində coğrafi adların standartlaşdırılması üzrə Ekspert Komissiyası fəaliyyət göstərir və mütəmadi olaraq bu təşkilatın təşəbbüsü ilə Cenevrədə, Londonda, Parisdə və s. şəhərlərdə coğrafi adların tədqiqinə, transliterasiyasına aid Beynəlxalq konfranslar keçirilir [4, s.24].

Bu konfranslarda vurğulanır ki, alınma coğrafi adların hər bir dildə işlənməsi normalaşdırılmalıdır, coğrafi adların beynəlxalq standartlaşdırılmasının əsasını milli standartlaşdırılma təşkil etməlidir, onları assimilyasiya edən dil mümkün qədər milli formanı saxlamalıdır. Bu meyarlardan çıxış edərək, belə bir sual meydana çıxır: Azərbaycan dilində alınma coğrafi adların işlədilməsində hansı problemlər mövcuddur? Alınma coğrafi adların işlədilməsində çətinliklər və problemlər ekstralinqvistik və intralinqvistik faktorlarla bağlıdır. Ekstralinqvistik faktorlar dedikdə biz onu nəzərdə tuturuq ki, sovet dövründə bir çox alınma toponimlər dilimizə rus dili vasitəsilə keçmiş və təbii ki, "vasitəçi" dilin təsiri heç də həmişə müsbət olmamışdır. Bu fikri açıqlamaq üçün demək lazımdır ki, Azərbaycan dilinin daxili potensialı zəngin olduğu halda, bu və ya digər alınma coğrafi adın ya rus dilində qəbul olunmuş forması və yaxud təhrif olunmuş forması işlədilir.

Coğrafi adların diferensial və adresat funksiyaları onların rəsmi sənədlərdə, xəritələrdə və digər nəşrlərdə dəqiq, düzgün və vahid bir formada işlənməsini tələb edir. Məsələn: **Неаполь**

(rusca) – Neapoli (ingiliscə) – Neapol (azərbaycanca). Əslində İtaliyada yerləşən şəhər Napoli adlanır. Azərbaycan dilində bu şəhərin adı elə **Napoli** kimi işlədilsəydi, "orijinala" daha yaxın olardı.

Финляндия (rusca) – Finland (ingiliscə) – Finlandiya (azərbaycanca). Fin dilində bu ölkə **Suomi** adlanır. Rus dilinin təsiri altında bu xoronim Azərbaycan dilində Finlandiya formasında işlənir. Bu formanın işlənməsi nə dərəcədə düzgün və məqsədəuyğun sayıla bilər?

Bu qəbildən olan misallar çoxdur. Və bu problem də Azərbaycan onomastikasında həllini gözləyən problemlərdəndir. Bu problemlərin düzgün həllini nəinki dilçilər, həmçinin hökumət idarəetmə orqanları, nəqliyyat və əlaqə müəssisələri, müxtəlif elm xadimləri, mədəniyyət və mətbuat işçiləri gözləyir.


Alınma coğrafi adların Azərbaycan dilində işlədilməsində intralinqvistik faktorlar hansılardır və bu sahədə mövcud olan problemlər necə aradan qaldırıla bilər? Alınma coğrafi adların işlədilməsində bir sıra çətinliklər onların tərkibində olan spesifik hərflərin ana dilimizdə qarşılığını tapmaqla bağlıdır. Bununla əlaqədar qeyd olunmalıdır ki, hal-hazırda Azərbaycan dilçiliyində həm alınma şəxs adlarının, həm də alınma coğrafi adların orfoqrafik lüğətlərinə böyük ehtiyac vardır. Hər şeydən əvvəl qeyd etməliyik ki, əcnəbi coğrafi adlarının Azərbaycan dilində verilməsində aşağıdakı üsullar mövcuddur:

1. transkripsiya.
2. transliterasiya.
3. tərcümə və yaxud kalka.
4. mətnə əcnəbi sözün onun spesifik formasında daxil edilməsi [5].

Təcrübədə bu üsullar bir-biri ilə əvəz olunur. Çünki hər birinin həm müsbət, həm də mənfi xüsusiyyətləri var. Tərcümə tarixində həmişə transliterasiya və transkripsiya daim bir-biri ilə əvəz olunub. Keçən əsrə qədər birincilik transliterasiyaya məxsus idi, yəni əcnəbi sözün hərfbəhərf qrafik verilməsi. XXI əsrdə isə artıq transkripsiya ön plana keçib [5].

Təqdim olunan məqalə əsasən rus və ingilis dillərindən alınma coğrafi adların Azərbaycan dilində verilməsinə aid olunduğundan, biz misalları bu dillərdən gətiririk. İndi isə alınma coğrafi adların işlədilməsində bəzi orfoqrafik xüsusiyyətləri nəzərdən keçirək.

1. Rus dilindən alınma coğrafi adların tərkibindəki **ц** hərfi Azərbaycan dilində iki cür verilir:



Цыгановка – **Sıqanovka** (oykonim)

Кузнецовский мост – Kuznetsov körpüsü (dromonim).

2. Alınma coğrafi adların tərkibində olan fışıltılı **щ** samiti Azərbaycan dilində **ş** samiti ilə əvəz olunur: **Ущельская гора** – **Uşel dağı** (oronim).

3. Rus dilindən alınma coğrafi adlarda işlənən və dilimizə xas olmayan **й** hərfi Azərbaycan dilində reduksiyaya uğrayır (sözün sonunda), məsələn: **ст. Минеральный** – **Mineralnı stansiyası; Ярославский вокзал** – **Yaroslavski vağzalı**.

4. Müxtəlif hecalarda mənşə (ingilis) dilində **h** ilə yazılan, rus dilində **х** hərfi ilə verilən, Azərbaycan dilində **h** ilə yazılır və bu hal onların asan tələffüzünü təmin edir, məsələn:

Havaii – Гавайи – Havaya

Houston – Хьюстон – Hyuston

Hyderabad – Гейдарабад – Haydarabad

5. İngilis dilində **j**, rus dilində **дж** hərfbirləşməsi vasitəsilə verilən, lakin Azərbaycan dilində **c** ilə yazılan alınma coğrafi adların bu cür işlənməsi məqsədəuyğun sayılır, məsələn:

Jaipur – Джайпур – Caupur

Jakarta – Джакарта – Cakarta və s.

Bu qəbildən olan alınma coğrafi adların mənşə dilə yaxın formada və ana dilimizin imkanlarından istifadə etməklə işlədilməsi onların düzgün normalaşdırılması və

standartlaşdırılmasına gətirib çıxarır; bu proqressiv tendensiyadır və beynəlxalq standartlaşdırılma işinə böyük töhfədir.

6. İngilis dilində qoşadodaq, novlu səs olan [w] səsinin Azərbaycan dilində qarşılığı yoxdur. Bu səslə başlanan ingilis dilindən alınma coğrafi adların yazılışında diqqətli olmaq lazımdır. **W** hərfi ilə başlanan alınma coğrafi adların yazılışında iki üsul var:

w – v
w – u
Washington – Vaşinqton (urbanonim)
Windzor – Vinzor (urbanonim)
Waterloo – Vaterloo (dromonim)
Walles – Uels (xoronim)
White Island – Uayt adası (xoronim)
Wall-Street –Vol-Strit (qodonim)
Wellsly – Velsli (urbanonim).

Nəticə: Beləliklə, Azərbaycan dilində alınma coğrafi adlar mühüm yer tutur. Alınmaların bir qismini şərq dillərindəki alınma onomastik vahidlər təşkil edir. Alınma coğrafi adlar Azərbaycan dilinin onomastik fondunu zənginləşdirir, onların normalaşdırılması və standartlaşdırılması ilə dilçilər qarşısında böyük tələblər qoyur. Alınma coğrafi adların Azərbaycan dilində orfoqrafiyasına və orfoepiyasına dair zəngin faktiki material göstərir ki, onların əsas qismi dilimizin fonetik və qrammatik xüsusiyyətlərinə uyğunlaşdırılaraq işlənir. Lakin bu sahədə problemlər də çoxdur. Alınma coğrafi adların orfoqrafik lüğətinin tərtibi bu problemlərin aradan qaldırılmasına kömək edə bilər.

Azərbaycan dilinin onomastik leksikasında alınma coğrafi adların araşdırılması və tədqiqi ümumiyyətlə onomastika ilə bağlı maraqlı xüsusiyyətlərin aşkara çıxarılması üçün zəmin yaradır. Alınma coğrafi adların Azərbaycan dilində dəqiq qarşılığının verilməsi həm dilimizin leksik və fonetik fondunu zənginləşdirir, həm də nominasiya imkanlarını genişləndirir.

Ədəbiyyat siyahısı

1. G.İ.Axundova. Binəqədi rayonunun toponimiyası: problemlər və perspektivlər. Bakı, AF Poliqraf, 2014.

2. A.Qurbanov. Azərbaycan onomastikası. Bakı, "Elm", 1968.

3. Беленькая В.Д. Очерки англоязычной топонимики. Москва, «Высшая школа»,1977.

4. Ономастика и норма. Сборник статей. Москва, «Наука», 1996.

5. Особенности передачи английских географических названий и имён собственных в русскоязычных текстах. Moluch.ru.

Г.И.Ахундова

Некоторые особенности транслитерации заимствованных географических названий в азербайджанском языке

Резюме

Статья посвящена лингвистическому исследованию транслитерации заимствованных географических названий в азербайджанском языке. Передача заимствованных географических названий в азербайджанском языке имеет большую значимость в эпоху глобализации и научно-технического прогресса. Международные социально-экономические и политические связи обусловливают актуальность транслитерации. В статье классифицируются специфические буквы и буквосочетания в европейских языках и даются практические рекомендации по их передаче в азербайджанском языке.

Ключевые слова: *транслитерация, фонетический фонд, необходимость, орфографический, топоним, восточные языки, индоевропейские языки, нормализация.*

G.I.Akhundova

Some peculiarties of transliteration of borrowed geographical names in the Azerbaijani language

Summary

The paper is dedicated to the linguistic research of transliteration of borrowed geographical names in the Azerbaijani language. The transfer of borrowed geographical names in the Azerbaijani language is of great significance in the epoch of globalization and scientific-economic progress. International social-economic and political relations precondition the actuality of transliteration. In the paper the specific letters and letter combinations of European origin in the Azerbaijani languages have been classifired and practical recommendations of their transfer in the Azerbaijani language have been given.

Key words: *transliteration, phonetic fund, necessity, orphographic, toponym, Eastern languages, Indo-European languages, normalization.*

Çapa tövsiyə edən: ***AMEA, Nəsimi adına Dilçilik İnstitutu***

Rəyçilər: ***dosent G.Hüseynova***
dosent S.Cumayeva